# TEATRIMIZIN YENİ HƏYATI



***Bu yaxınlarda Tiflisdə Azərbaycan milli mədəniyyət tarixi üçün önəmli hadisə baş verdi: Tiflis Azərbaycan Dövlət Dram teatrının kollektivi "Şən vodevillər" adlı tamaşa ilə fəaliyyətə başladı.***

Milli səhnə tariximizdə Tiflis Azərbaycan teatrının özünəməxsus yeri olub. 19-cu yüzilliyin 70-ci illərindən 1947-ci ilədək fəaliyyət göstərmiş bu teatr zəngin sənət yolu keçib. Onun səhnəsində Azərbaycan, eləcə də gürcü, dünya dramaturgiyasının şah əsərləri böyük uğurla, klassik səviyyədə tamaşaya qoyulub. Milli teatrımızın korifeylərindən Hüseyn Ərəblinski, Mərziyə Davudova, Sidqi Ruhulla və başqaları dəfələrlə qastrol tamaşalarında çıxış ediblər. Burada Azərbaycanın xalq artistləri Əli Qurbanov, Möhsün Sənani, Mustafa Mərdanov, Gürcüstanın xalq artisti İbrahim İsfahanlı, Gürcüstanın əməkdar artisti Abbas Qurbanov kimi tanınmış səhnə xadimləri yetişiblər.

1920-ci illərin ortalarında xüsusi binaya malik olmuş, Mirzə Fətəli Axundov adına Tiflis Dövlət Azərbaycan Dram Teatrı statusu almış, 1940-cı illərdə akademik musiqili-dram teatrı statusu qazanmış bu teatr yaradıcılıq fəaliyyətinin ən coşğun, ən məhsuldar çağında - 1947-ci ilin yanvarında subyektiv səbəblər üzündən bağlanmışdı.

Nəhayət, Gürcüstandakı azərbaycanlı ziyalıların təşəbbüsləri, milli öndərimiz Heydər Əliyevin qayğıkeşliklə təsiri, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin bilavasitə köməyi günümüzdə öz bəhrəsini verdi. Gürcüstan prezidenti Mixail Saakaşvilinin 2004-cü il iyunun 11-də imzaladığı 216 saylı xüsusi fərmanla Tbilisi Azərbaycan Dövlət Dram teatrı yaradıldı, teatra dövlət nəzarəti Gürcüstan Mədəniyyət, Abidələri Mühafizə və İdman Nazirliyinə həvalə edildi, teatrımızın əzəl binası - Qorqasali küçəsindəki 1 saylı bina təmənnasız olaraq yenidən teatra qaytarıldı.

Bu, nəinki təkcə Gürcüstanda yaşayan soydaşlarımızın, eləcə də bütün Azərbaycan xalqının çağdaş mədəniyyət həyatında önəmli hadisə olaraq dəyərləndirilir.



Bəs teatrın bugünkü durumu necədir? Bu suala cavab aramaq məqsədilə teatr kollektivi ilə görüşdük, onun yaradıcılıq fəaliyyəti və planları ilə maraqlandıq.

Teatrın direktoru Azərbaycan Dövlət İncəsənət İnstitutunun məzunu, uzun illər Gürcüstan Televiziya və Radio Verilişləri Komitəsində çalışmış Ələddin Həsənov dedi:

- Tiflis teatrımızın dirçəldilməsi barədə hələ 1998-ci ildən müvafiq fərman var idi, ancaq Gürcüstanın keçmiş iqtidarının loyallığı səbəbindən bu məsələ xeyli müddət kağız üzərində qaldı. Yeni rəhbərlik hakimiyyət başına gələn kimi bu məsələni bir daha ortaya atdıq. Azərbaycan iqtidarı tərəfindən ciddi dəstək mühüm rol oynadı. Gürcüstanın yeni prezidenti qeyd-şərtsiz olaraq teatrın bərpası, öz binasının ona qaytarılması barədə fərman imzaladı. Bu, həm də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfərinə bir növ hədiyyə oldu.

Hazırda teatr öz yeni həyatını yaşayır. Yaradıcı aktyor heyəti, texniki ştatlar komplektləşdirilib, binada, səhnədə cari təmizləmə işləri aparılıb, tamaşa salonunda səliqə-sahman yaradıldı. Aktyorlarımız əsasən Tiflis teatrımız üçün məqsədli olaraq dövlət hesabına təhsil almış Azərbaycan Dövlət Mədəniyyət Universitetinin və Gürcüstan Dövlət Teatr və Kino İnstitutunun məzunlarıdır. Onlardan Aslan Məmmədov, Sevinc Hüseynova, Namiq Hacıyev, Turqay Vəlizadə, Vüqar Maşov, Namiq Musayev, Fəridə Sadıqova, Mənzər Sabıqova ümid verən gənclərdir. İndi xoreoqraf Binnət Səmədov tələbələrlə onların yaradıcılıq texnikasını daha da təkmilləşdirmək üçün ciddi çalışır. Teatrın tarixinə aid sənədlər əldə edirik, teatr muzeyimizdə (müdir Əlixan Səmədov) ilk qiymətli materiallar toplanır.

Bədii rəhbər Gürcüstanda tanınmış teatr və kino xadimi, bir çox teatr tamaşalarında, kinolarda əsas rolları aparmış İrakli Azikuri kollektivin yaradıcılıq işində, gələcək planlardan danışdı:

- Əvvəlcə fəxrlə bildirim ki, bu teatrın ənənələrinin dirçəldilməsi gürcü incəsənət aləmində yuksək qiymətləndirilir. Azərbaycanla Gürcüstan arasında iqtisadi, ictimai münasibətlərin strateji müttəfiqlik səviyyəsində davamlandığı indiki dövrdə mədəniyyət sahəsində əlaqələrin də səmimilik, qarşılıqlı, rəğbət ruhunda belə inkişafı hamımızı sevindirir. Repertuar kontorlarımızı məsləhətləşib, tərtibləmişik. Özümüzün hazırladığımız "Tezmi partlayacaq?" adlı yumorlu vodevil tamaşamız hazırdır. Rus dramaturqu Miroslav Mitroviçin "Gecə yarısında soyğunçuluq" komediya-voldevilinin tamaşa məşqləri gedir. Tezliklə Azərbaycan dramaturqu Əli Əmirlinin "Onun iki qabırğası" adlı ikihissəli komediyasının məşqlərinə başlayacağıq. Ümid edirik ki, yaxın gələcəkdə səbirsizlə gözləyən tamaşaçılarımızın mübarək görüşünə gələ biləcəyik.

Planlarımıza gəlincə, qeyd edək ki, Əli Əmirlinin "Köhnə ev" melodramasının, Əziz Nesinin "Öldür, öldür məni, əzizim" əsərinin mətnləri repertuar qovluğumuzdadır. Gələcək planlarımız barədə onu deyə bilərik ki, bu teatrda daha çox təbii və məntiqi olaraq Azərbaycan milli dramaturgiyasına yer verəcəyik. Biz həm də bu teatrın Gürcüstanda fəaliyyət göstərdiyini, gerçək kolorit nəzərə alaraq, gürcü teatrının uğurlarını burada da davam etdirməyə, yaşatmağa çalışacağıq. Bir məqamı xüsusi vurğulamaq istəyirik. Bilirik ki, Azərbaycan xalqı, ələlxüsus da Gürcüstandakı azərbaycanlılar musiqi, aşıq, saz sevərdirlər. Ona görə də çalışacağıq ki, musiqiyə imkan daxilində daha çox yer verək, səhnəyə aşıq da çıxaraq. 19-cu əsrin məşhur gürcü aşığı, Azərbaycan dilində də çalıb-çağırmış Yetim Gürcünün həyat-yaradıcılığına aid tamaşa hazırlamağı, Tiflislə bağlı "Aşıq Qərib" dastanının səhnə təcəssümünü yaratmağı nəzərdə tutmuşuq.

Teatrın direktor müavini Vaqif Bayramov mövcud problemlər barədə söhbət açdı:

- Əlbəttə, teatrımız yeni fəaliyyətə başlayır, necə deyərlər, təzəcə day durur. Ona görə də problemləri qabartmaq fikrində deyilik. Sadəcə bizi narahat edən, işimizi ürəyimiz istədiyi kimi qurmağa manc olan əsas bir neçə məsələni qeyd etməmək olmaz. Birincisi, binanın dözülməz vəziyyəti haqqında. Uzun illər boyu bu bina baxımsızlıq ucundan bərbad vəziyyətə düşüb, tavandan yağış damır, döşəmələr, divarlar, səhnə pis görkəmdədir. Teatr binamızın əsaslı təmiri kollektivimizin dekorasiya kostyumla, səhnə avadanlıqları ilə təminatı birinci dərəcəli həll ediləsi məsələlərdir. Bu baxımdan Azərbaycanın dəstəyinə inamımız böyükdür. Azərbaycan Mədəniyyət Nazirliyi ilə, teatr Xadimləri İttifaqı ilə, digər qurumlarla, iqtisadi, qeyrətli mədəniyyət, incəsənət adamları ilə işgüzar yaradıcılıq əlaqələri qurub, inkişaf etdirmək arzusundayıq.

Tiflisdə Azərbaycan teatrının səhnəsi yenidən işıqlandı! Bura Azərbaycan mədəniyyətinin daha bir önəmli mərkəzinə, Gürcüstan azərbaycanlılarının yeni mədəni ocağına çevriləcək.

Təzə həyatın, təzə qədəmlərin mübarək, Tiflis teatrımız!

**Şurəddin Məmmədli,**
**filologiya elmləri doktoru**